DƏDƏ QORQUD

# QAZAN XANIN YEDDİBAŞLI ƏJDAHANI ÖLDÜRMƏSİ



Hazırlayan:
Asif Hacıyev (Şirvanelli)

Yonca

**DƏDƏ QORQUD**
**QAZAN XANIN YEDDİBAŞLI ƏJDAHANI ÖLDÜRMƏSİ**

Bakı, "Yonca", 2023, 16 səh.
Ölçü: 145x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 05.09.2023

Hazırlayan: Asif Hacıyev (Şirvanelli)
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Texniki redaktor: Gülüstan Bağırova
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Rafael Qasım

Qanun nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-800-8

© "Yonca", 2023
© "Yonca" "Qanun" nəşriyyatının əmtəə nişanıdır

Uşaq ədəbiyyatı ilə bağlı bütün təklif və iradlarınızı
bu ünvana yazın: **yoncakitab@gmail.com**

*Dədə Qorqud qədim oğuzların bayat tayfasından çıxmış böyük bilici idı. Nə deyirdisə, olurdu. O, gələcəkdən qəribə xəbərlər verərdi.*

*Dədə Qorqud oğuzların çətin işlərini yoluna qoyardı. Odur ki görəcəkləri hər bir işi onunla məsləhətləşər, buyurduğunu yerinə yetirərlərdi.*

*Dədə Qorqud həm də Uca Tanrının könlünə ilham verdiyi ozanlar ozanı idi. O, qopuz çalar, hünər göstərmiş oğuz igidlərini tərifləyər, adına dastanlar qoşardı. Sonrakı nəsil ozanlar bu dastanları el şənliklərində söyləyər, xalq arasında yayardı.*

*Dədə Qorqudun düzüb-qoşduğu bu dastanların bir çoxu yazıya alındığı üçün günümüzə qədər gəlib çatmışdır.*

*Əziz uşaqlar, həmin dastanları oxumaqla Siz xalqımızın keçmişini öyrənəcək, adət-ənənəsi, yüksək əxlaqi dəyərləri ilə yanaşı, igid oğul və qızları haqqında bilgilərə yiyələcəksiniz.*

*Bu kitabda Qazan xanın əjdahanı necə öldürməsindən bəhs olunur.*

*Xoş oxumalar! Dədə Qorqud demişkən, uğurunuz daimi olsun!*





Bayındır xan Oğuz dövlətinin başçısı idi. Ulaş oğlu Qazan xan isə onun bəylər bəyi idi. Oğuzların salur tayfasından olduğu üçün adına Salur Qazan deyirlərdi. O, elin dayağı idi. Yaylağı Savalan dağı, qışlağı isə Sarıqamış idi. Səksən minlik orduya başçılıq edərdi. Həmişə polad iti qılınc, dəmir uclu nizə, ox və yayla silahlanardı.

Bir yaz günü Qazan xan Qonur atına mindi, üç yüz igidi yanına aldı. Tulasını, ov quşlarını da özü ilə götürüb Ağ Manqana ova çıxdı. Ov ovladı, quş vurdu. Günortadan xeyli keçmişdi. O, igidlərinə dedi:



– Kimsə mənimlə gəlməsin. Hamınız obaya qayıdın. Mən ovu tək ovlayacam.

Qazan xan igidlərini obaya yollayıb atını Ağ Manqanın təpəsinə sürdü. Qaranlıq qarışdı. Əlinə bir ov keçmədi. Dedi:

– Allahım, mən igidlərimdən ayrıldım. Sən məni ovsuz qoyma, obaya əliboş qayıtmayım.

Yuxarıdan aşağıya göz gəzdirdi. Qara dağın ətəyində yeddi yerdə yanan məşəl gördü. Yeddi yerdə qalın tüstü çıxdığını gördü. Qazan xan elə bildi ki, öz obasının çırağının işığıdır. Atını tərpədib o işığa sarı çapdı.

Qazanın obasında Lələ Qılbaş deyilən bir lələsi[1] vardı. O eşitdi ki, Qazan xan ovda təkdir. Dözməyib Qazanın ardınca yollandı.

Qazan ora yetişəndə gördü ki, təpə kimi bir şey yatır, meşə kimi bir şey əsir. Demə, bu yeddibaşlı bir əjdaha imiş. Yeddi yerdə məşəl kimi yanan onun gözləri imiş. Yeddi yerdə tüstü kimi çıxan ağzının buğu imiş. Meşə kimi əsən əjdahanın yalı imiş.

---

[1] Keçmişdə oğlan uşağının tərbiyəsi ilə məşğul olan şəxsə "lələ" deyilirdi.